

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 5 (23.167)

*9 yanvar 2019-cu il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ötən ilin yekunları müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib



*Naxçıvan Dövlət Universitetində 2018-ci ildə görülən işlər və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncağı giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq məruzə ilə çıxış edib.*

Qeyd olunub ki, dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə maddi-texniki bazanın daha da möhkəmləndirilməsi, tədris prosesinin günün tələbləri səviyyəsində qurulması istiqamətində tədbirlər ötən il də davam etdirilib. Universitetin Tibb fakültəsinin korpusunda təmir və yenidənqurma işləri artıq yekunlaşmaq üzrədir. Məruzədə tədris bazasının daha da möhkəmləndirilməsi məqsədilə yeni fənn kabinələri və laboratoriyaların qurulmasından, mövcud olanların zənginləşdirilməsi istiqamətində görülən işlərdən, müasir texnologiyalardan istifadəyə yaradılan şəraitdən bəhs olunub.

Universitetin beynəlxalq əlaqələrindən danışan rektor vurğulayıb ki, ali təhsil ocağı hazırda ERASMUS+ layihəsi çərçivəsində ERASMUS+AESOP, ERASMUS+ NİZAMİ VƏ ERASMUS+PETRA, Key Action layihələrinin üzvüdür və bu layihələr çərçivəsində bir çox yerli və Avropa universitetləri ilə əməkdaşlıq edir. Saleh Məhərrəmov ali təhsil ocağının Bolonya bəyannaməsinin müddəalarına müvafiq olaraq tələbə və müəllimlərin akademik mobilliyi istiqamətində işləri uğurla davam etdirdiyini diqqətə çatdırıb.

Naxçıvan Dövlət Universitetinin 2018-ci ildə təhsil, elm və tərbiyə sahəsində yerinə yetirdiyi işlər və qarşıda duran vəzifələr barədə universitetin tədris və tərbiyə işləri üzrə prorektoru, dosent Rafiq Rəhimov məlumat verərək bildirib ki, universitetdə hazırda 5351 bakalavr, 326 magistrant və 150 doktorant təhsil alır. Ötən il 1133 bakalavr, 100 nəfər isə magistrant təhsilini başa vurub. 2018-ci ildə bu ali təhsil ocağına bakalavr təhsil pilləsinə 1049, magistratura üzrə isə 157 nəfər qəbul olunub.

Çıxışda 2018-2019-cu tədris ilində universitetin bakalavr və magistr təhsil səviyyələri üzrə yeni ixtisaslara tələbə qəbulu aparılması haqqında da məlumat verilib. Prorektor bildirib ki, ötən il müxtəlif elm sahələri üzrə uğurlu tədqiqat işləri aparılıb. Universitet müəllimlərinin 15 monoqrafiyası, 90-a yaxın dərsliyi, dərs və tədris vəsaitləri, 558 elmi məqaləsi və 29 tezisi çap olunub. Hesabat dövrü ərzində 9 nəfər fəlsəfə doktoru, 3 nəfər isə elmlər doktorluğu alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə edib, mühüm elmi konfranslar keçirilib.

“Universitetin beynəlxalq əlaqələri” mövzusunda çıxışında Beynəlxalq əlaqələr bölməsinin müdiri Müşərrəf Məmmədova vurğulayıb ki, ötən il universitetlərarası əlaqələrin qurulması və inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılıb. Bildirilib ki, hazırda universitetdə 486 xarici tələbə təhsil alır. Tələbələrdən 254 nəfəri hazırlıq kursunun dinləyicisi, 220 bakalavr, 10 magistr, 2 nəfəri isə doktorantura səviyyəsinə aiddir. Əcnəbi tələbələr Türkiyə, İran, Nigeriya, Qana və Gürcüstandandır.

Mühasibat uçotu və audit ixtisası üzrə IV kurs tələbəsi, Prezident təqaüdçüsü Kərim Nəcəfov “Universitetin ictimai həyatında tələbələrin rolu” adlı çıxışında tələbələrə göstərilən yüksək dövlət qayğısından, tələbə gənclərin ötənilki uğurlarından danışıb.

* * *



“Naxçıvan” Universitetində keçirilən yığıncağı giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açaraq bildirib ki, Ali Məclis Sədrinin beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasındakı məruzəsində də qeyd olunduğu kimi, muxtar respublikada təhsilin bütün mərhələləri üzrə infrastrukturun yenilənməsinə, müasir informasiya texnologiyaları və tədris vasitələri ilə təchiz olunmuş məktəb binalarının istifadəyə verilməsinə xüsusi diqqət yetirilir. Göstərilən dövlət qayğısı nəticəsində ötən il ali təhsildə də əhəmiyyətli uğurlar qazanılıb. Naxçıvanda fəaliyyət göstərən digər ali təhsil müəssisələri kimi, “Naxçıvan” Universiteti də 2018-ci ildə öz işini dövlətçilik və sosialyönümlü prinsiplər əsasında qurub və hesabat ilində bir sıra müvəffəqiyyətlərə nail olunub. Belə ki, 2018-2019-cu tədris ilində universitetə tələbə qəbulu ötən illə müqayisədə 30 faiz artıb. Ötən tədris ilində ali təhsil ocağında bakalavr təhsil səviyyəsində 15 ixtisas üzrə 1034 tələbə təhsil alıb.

Rektor vurğulayıb ki, universitetdə kadr hazırlığı ilə 88 nəfər professor-müəllim heyəti məşğul olur. Onlardan 3-ü elmlər doktoru, professor, 20-si fəlsəfə doktoru, dosent, 65-i isə baş müəllim və ixtisaslı müəllimlərdir.

Diqqətə çatdırılıb ki, 2018-ci ildə digər sahələrdə olduğu kimi, beynəlxalq əlaqələr baxımından da universitet üçün uğurlu olub. Cari ildə ali təhsil ocağı beynəlxalq təlim və proqramlarda, müxtəlif sərgilərdə təmsil olunub, istər universitetin tanıtımı, istərsə də ikitərəfli əlaqələrin qurulması və inkişafı baxımından mühüm işlər görülüb. Hesabat ilində Pakistanın Superior Universiteti, Banqladeşin Daffodil Beynəlxalq Universiteti və Karaçinin “Karaçi” Xarici Əlaqələr Şurası, İqra Universiteti və Qazaxıstanın Əhməd Yasəvi Universiteti ilə müqavilə imzalayaraq yeni əməkdaşlıq əlaqələri qurulub. Mövcud müqavilələrə uyğun olaraq Əhməd Yasəvi Universitetinin müəllimi Aktolkin Abubəkirova 2018-2019-cu tədris ilinin birinci yarısında bir ay müddətində Turizm və otelçilik ixtisasında iki fəndən məşğələ aparıb. Bundan başqa, ötən ilin fevral ayında universitet Avrasiya Universitetlər Birliyinin təşkilatçılığı ilə İstanbulda keçirilən təhsil sammitində, oktyabr ayında isə “Akare” təhsil sərgisində iştirak edib.

Rektor elm və təhsilin inkişafı, ixtisaslı mütəxəssis hazırlığı istiqamətində qarşıda duran vəzifələrdən bəhs edib, pedaqoji kollektivin bundan sonra da əzmkarlıq və səylə çalışacağına əminliyini bildirib.

*Yanvarın 8-də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində 2018-ci ildə görülən işlər və qarşıda duran vəzifələrlə bağlı kollegiya iclası keçirilib.*



Kollegiyada fövqəladə hallar naziri, general-leytenant Şamı Abdullayev məruzə ilə çıxış edərək bildirib ki, 2018-ci ildə nazirliyin aparatı və struktur qurumları muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahələrində qarşıya qoyulmuş vəzifələri, əsasən, yerinə yetirib. Struktur qurumlarında xilasetmə bölmələrinin “Daimi hazırlıq” mərhələsində olmaları, şəxsi heyətlə gündüz və gecə məşğələləri, təlimlər və əməli məşğələlər keçirilib. Nazirliyin balansında olan Mİ-17-1V markalı vertolyotun əsaslı təmirdən sonra Naxçıvan şəhərinə gətirilməsi təmin edilib. Yaşayış və qeyri-yaşayış yerlərində təmir işləri aparılıb, nazirliyin balansında olan xüsusi təyinatlı və avtomobil nəqliyyatı vasitələrinin, Mİ-17-1V markalı vertolyotun mövsümi istismar şəraitinə keçidi təmin olunub. Xilasedicilərin peşəkarlığının artırılması məqsədilə bir qrup əməkdaş ölkə və beynəlxalq səviyyəli təlimlərdə iştirak edib, bilik və təcrübəsini artırıb. Xilasedici dalğıcların peşə hazırlığı Uzunoba Su Anbarında keçirilən taktiki-xüsusi təlimdə təkmilləşdirilib.

Nazirlik tərəfindən Naxçıvan Muxtar Respublikasında fövqəladə hallarda fəaliyyəti zəruri olan müəssisə və təşkilatların fövqəladə hallara hazırlıq vəziyyəti yoxlanılıb, Naxçıvan şəhər çimərliyində xilasedici dalğıcların sutkalıq növbətçiliyi təşkil edilib, suda boğulma və digər xoşagəlməz hadisələrin qarşısı vaxtında alınıb.

Diqqətə çatdırılıb ki, il ərzində istismara verilmiş 8 təhlükə potensiallı obyekt, 116 avadanlıq və qurğu dövlət reyestrində qeydiyyatdan keçirilib, 20 texnoloji nəqliyyat vasitəsinə dövlət nömrə nişanı və qeydiyyat şəhadətnaməsi verilib. 37 müəssisədə 235 təhlükə potensiallı qurğu və avadanlıq sertifikatlaşdırılıb, 30 kran və 101 lift texniki müayinədən, 7 müəssisədə maşın və mexanizmlər, avadanlıq və qurğular ekspertizadan keçirilib, 1 xüsusi təyinatlı avtomobilə təhlükəli yüklərin daşınması üçün şəhadətnamə verilib. 98 obyektdə əməli yoxlama aparılıb. 37 obyektdə ayda bir dəfə mühafizə işinin təşkili yoxlanılıb.

Qeyd edilib ki, mülki müdafiə işinin təşkili ilə bağlı 7 təlim və əməli məşğələ, 2 konfrans, 318 obyektdə yoxlama aparılıb, 12 tibb müəssisəsində həkim yardım briqadalarının hazırlığı təmin edilib, 402 maarifləndirici tədbir, 20 ümumtəhsil məktəbində nümunəvi dərslər keçilib.

Yanğın təhlükəsizliyi orqanları tərəfindən 1769 obyektdə, 6385 mənzildə yanğın-texniki müayinələr aparılıb, 74 min 855 nəfər yanğına qarşı təlimatlandırılıb, 203 obyektdə 8144 nəfərin iştirakı ilə maarifləndirici tədbir keçirilib.

Bildirilib ki, 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıqla bağlı 749 qazanxanada təhlükəsizlik tədbirləri həyata keçirilib, mövsümi qazanxana işçiləri təlimatlandırılıb, müvafiq peşə ixtisası üzrə şəhadətnaməsi olmayan 323 işçinin ocaqçı-maşinist kurslarına cəlb olunması təmin edilib. 124 ticarət obyektində yoxlamalar keçirilərək Azərbaycan dilində müvafiq işlətmə təlimatı olmayan və sənaye üsulu ilə hazırlanmayan qazqızdırıcı cihazlarının muxtar respublikaya gətirilməsinin qarşısı alınıb. İctimai yaşayış binalarında tüstü bacalarına baxış keçirilib, 801 obyektin yanğından icbari sığorta olunması təmin edilib.

Tikintidə təhlükəsizlik sahəsində işlər davam etdirilərək 48 obyektin ərazisində mühəndis-geoloji işlər aparılıb, laboratoriya şəraitində inşaat materiallarından götürülmüş 196 nümunənin sınağı keçirilib. Səyyar üsulla tikinti obyektlərində 176 dəfə dəmir-beton konstruksiyalarda betonun naturada möhkəmlik göstəricisi yoxlanılıb, 63 obyektin işçi və layihə sənədlərinin ekspertizası keçirilib, tikintisi başa çatdırılmış 37 obyekt dövlət komissiyası tərkibində istismara qəbul edilib.

Şamı Abdullayev vurğulayıb ki, il ərzində nazirliyin struktur qurumları muxtar respublika ərazisində baş vermiş fövqəladə hadisələrin, yol-nəqliyyat qəzalarının nəticələrinin aradan qaldırılmasına, yanğınların söndürülməsinə cəld və çevik reaksiya verib. Əldə olunan nailiyyətlər rəhbərlik tərəfindən yüksək qiymətləndirilib, 2 zabit və 1 dövlət qulluqçusu dövlət mükafatına layiq görülüb, 10 əməkdaş “Rəşadətli əməyə görə” döş nişanı ilə təltif olunub.

* * *

*Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində keçirilən yığıncağı giriş sözü ilə müəssisənin direktoru Bəhruz Əzimov açaraq məruzə edib.*



Qeyd olunub ki, 2018-ci ildə muxtar respublika əhalisinin, təşkilat və müəssisələrin neft və maye qaz məhsullarına olan tələbatını ödəmək məqsədilə müəssisəyə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Bakı Neft Bazası ilə bağlanmış müqaviləyə əsasən 31 min 124,8 ton A-92 avtobenzini, 119 min 992,4 ton dizel yanacağı, 11 min 708,7 ton bitum, 10 min 982,0 ton mazut, 430,7 ton müxtəlif növ yağlar, 2746 ton maye qaz gətirilib.

Alınan yanacaq muxtar respublikaya Bakı-İran İslam Respublikası və Bakı-Gürcüstan-Türkiyə marşrutları ilə daşınıb. Ötən il Gürcüstan-Türkiyə yolu ilə 23 min 279,6 ton dizel yanacağı və 1956,7 ton A-92 markalı avtobenzin olmaqla, ümumilikdə, 25 min 236,3 ton neft məhsulları daşınıb. İran İslam Respublikasından keçməklə 96 min 936,6 ton dizel yanacağı, 29 min 135,3 ton A-92, 11 min 708,7 ton bitum, 10 min 982 ton mazut, 2746 ton maye qaz, 430,7 ton müxtəlif növ yağ olmaqla, ümumilikdə, 151 min 839,3 ton neft məhsulları gətirilib.

Bildirilib ki, müəssisə 2018-ci ildə ümumi dövriyyəsi 118 milyon 115 min manat olan 179 min 992,6 ton müxtəlif növ neft məhsulları satıb ki, bunun da 31 min 404,2 tonu avtobenzin, 122 min 593,9 tonu dizel yanacağı, 11 min 708,7 tonu bitum, 11 min 80,4 tonu mazut, 2774,6 tonu maye qaz, 430,7 tonu müxtəlif növ yağlar olub. 2018-ci ildə müəssisə satışdan 1 milyon 53 min manat mənfəət əldə edib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının istilik sistemi olmayan təhsil, səhiyyə, mədəniyyət və turizm müəssisələrinə 2018-2019-cu illərin payız-qış mövsümü üçün tələb olunan 159 min 810 litr dizel yanacağı yerlərdə təhvil verilib.

Qeyd olunub ki, boruların, nasosların, elektrik avadanlıqlarının saz vəziyyətdə olmasına daim nəzarət edilib və bu istiqamətdə lazımi tədbirlər görülüb, yanacaq ehtiyatı yaradılıb. 1 yanvar 2019-cu il tarixə müəssisənin anbarlarında 1937,6 ton A-92 benzini, 2781,3 ton dizel yanacağı, 866,9 ton mazut ehtiyatı vardır.

Müəssisənin direktoru 2019-cu ildə qarşıda duran vəzifələrdən, bu vəzifələrin yerinə yetirilməsinin vacibliyindən də danışıb.

Sonra məruzə ətrafında müzakirələr olub.

**Xəbərlər şöbəsi**



Jurnalistin qeydləri

# Ötənilki nailiyyətlərimiz gələcək uğurlarımızın müjdəçisidir

*Ötən ili Naxçıvanın uğur ili adlandırsaq, heç də yanılmarıq. 23 ildir ki, hər il diyarımız uğurlarına yeni uğurlar əlavə edir. Ötən il də bir daha göstərdi ki, on illər ərzində bu qədim türk yurdu keçilməyən yollar fəth edib, dünyanı heyran edən bir məmləkətə çevrilib. Bu gün Naxçıvan Muxtar Respublikası nail olduğu intibah mərhələsinin zirvə nöqtəsindədir.*

Bəli, 2018-ci ildə nailiyyətlərimizə böyük və tarixə düşmüş yeni nailiyyətlər əlavə olundu. Daha çox nələrlə yadda qaldı 2018? Elə ilin birinci ayında Naxçıvan Muxtar Respublikasında investisiya və biznes mühitinin inkişafına verdiyi xüsusi töhfəyə görə "Caspian European Club"un mükafatının təqdim olunmasını xüsusi qeyd etmək lazımdır. Məlumat üçün bildirək ki, "Caspian European Club" dünyanın 70 ölkəsində investisiya reytinqi hazırlayır və hər bir ölkədə lider region seçir. "Caspian European Club"un sədri cənab İlham Əliyevin qarşıya qoyduğu məqsəd ondan ibarətdir ki, reytinq siyahısı hazırlanarkən müşahidə edilən müsbət hallar ölkəmizdə tətbiq olunsun. 2017-ci il üçün investisiya reytinqində Naxçıvan Muxtar Respublikasının ölkəmizin iqtisadi regionları içərisində ilk pillədə qərarlaşması xarici ekspertlər tərəfindən də yüksək qiymətləndirilib.

2018-ci il yanvar ayının 23-də Heydər Əliyev Muzeyində Naxçıvan Muxtar Respublikasının 2017-ci ilin nəticələrinə görə investisiya reytinqində birinci yerə çıxması ilə bağlı tədbir keçirildi. Tədbirdə Naxçıvanın keçdiyi inkişaf yoluna, xüsusilə də 2017-ci ilə bir daha nəzər salındı, Naxçıvan Muxtar Respublikasının inkişafının ölkə başçısının müəyyən etdiyi ***"Güclü dövlət, yüksək rifah"*** strategiyasına əsaslandığı vurğulandı. Sevindirici haldır ki, ötən ildə də Naxçıvan Muxtar Respublikası yenidən investisiya reytinqinin lideri oldu.

2018-ci ildə Naxçıvanın ölkənin Gənclər Paytaxtı seçilməsi sevincimizə daha bir sevinc qatdı. Bu qalibiyyət bizim üçün ikiqat bayram oldu. Çünki Naxçıvan 2018-ci ildə ikinci paytaxt ünvanı statusunu aldı. Həm İslam Mədəniyyətinin Paytaxtı, həm də ölkənin Gənclər Paytaxtı. Başa vurduğumuz ildə doğma Naxçıvan iki məsuliyyətli təmsilçiliyi qürurla daşıdı. Bir məsələyə də diqqəti çəkmək istəyirəm. Məlumdur ki, Gənclər Paytaxtı bir il müddətinə seçilir. Bu müddətdə həmin şəhər gənclərin ictimai, siyasi, sosial, iqtisadi və mədəni həyatda fəal iştirakını təmin edir, onların intellektual və yaradıcılıq potensialının artırılmasına, yeni ideya və layihələrinin reallaşdırılmasına dəstək verir. Əslində isə bu qeyd olunan tədbirlər Naxçıvanda 20 ildən çoxdur ki, həyata keçirilir. Naxçıvan Gənclər Paytaxtı adını layiqincə daşıdı, yüksək təşkilatçılıqla keçirilən tədbirlərlə layihədə adını ilkin sıralara yazdırdı. Sentyabrın 21-23-də Naxçıvanda "Avropa günləri"nin və noyabrın 26-da Türk Şurası Gənc Liderlərinin ilk forumunun keçirilməsi bu tədbirlərin ən möhtəşəmlərindən oldu. Hər iki tədbirin muxtar respublikada ilk dəfə keçirilməsini Naxçıvana olan etimadın və tədbirlərin yüksək səviyyədə reallaşdırılmasına inamın ifadəsi kimi dəyərləndirildi. Çünki belə tədbirlər qədim diyarımızın dünyaya tanıdılmasına, blokadanı birdəfəlik qırmağa, daha böyük inkişafa yeni qapılar açmaq arzularına xidmət edir, bu da müdrik bir siyasətdən qaynaqlanır.

2018-ci ilin aprel ayında keçirilən prezident seçkiləri Azərbaycanın tarixi dövlətçiliyinin, milli və mənəvi dəyərlərin qorunub yaşadıldığı Naxçıvan Muxtar Respublikasında demokratiyanın təntənəsi ilə yadda qaldı. 11 aprel seçkilərində muxtar respublikadakı seçicilərin 94,2 faizi cənab İlham Əliyevə səs verdi. Bu, onu göstərirdi ki, naxçıvanlılar ölkə rəhbərinə böyük rəğbət bəsləyir, həmişə onu dəstəkləyirlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ötən 15 il ərzində muxtar respublikaya 14 dəfə səfərə gəlib və 135-dən çox müxtəlif təyinatlı mühüm əhəmiyyətə malik obyektin açılışında iştirak edib. Həyata keçirilən həmin quruculuq tədbirləri Naxçıvanın sürətli sosial-iqtisadi tərəqqisinin bariz nümunəsidir. Bu mənada, 2018-ci il mayın 16-da dövlətimizin başçısının Naxçıvan Muxtar Respublikasına səfəri əlamətdar hadisələrlə yadda qaldı. Səfər çərçivəsində Prezident cənab İlham Əliyev çıxışlarının birində burada aparılan abadlıq-quruculuq işlərini, qədim diyarın sürətli inkişafını yüksək dəyərləndirdi. Ölkə başçısı bildirdi ki, ***"Bu il Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı kimi şərəfli ad daşıyır. Bir neçə il bundan əvvəl Bakı bu ada layiq görülmüşdü və biz o vaxt ISESCO-ya müraciət etmişdik ki, biz istəyirik ikinci Azərbaycan şəhəri – məhz Naxçıvan şəhəri bu ada layiq görülsün. Çünki Naxçıvan buna layiqdir. Bilirəm ki, bu gözəl hadisə ilə bağlı təntənəli tədbirlər keçiriləcəkdir, çoxlu qonaqlar gələcəklər, bir daha görəcəklər ki, dünyada belə gözəl məkan var. Gözəl təbiəti, iqlimi, havası, mənzərəsi, binaları və ən önəmlisi, gözəl insanları olan gözəl məkan var – bu məkanın adı Naxçıvandır".***

Bəli, 2018-ci il iyunun 20-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in açılış və dekabrın 15-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında "Naxçıvan – İslam Mədəniyyətinin Paytaxtı – 2018"in bağlanış tədbirləri ilə Naxçıvan hərtərəfli inkişafa malik böyük mədəniyyət paytaxtı kimi dünyanın diqqətini özünə cəlb etdi. İstər yerli, istər xarici mətbuatda bu mövzuya geniş yer verildi və vurğulandı ki, İslam tarixinin bir parçası olan Naxçıvan bu dinin olduğu kimi təbliğinə öz töhfəsini verir və bu diyarda heç bir dini və mədəni ziddiyyət mövcud deyildir. Belə birgəyaşama mədəniyyəti dünya üçün bir nümunədir.

Naxçıvan 2018-ci ildə ən yeni tarixinə Günnüt zəfərini və ya uğurlu Naxçıvan əməliyyatını yazdırdı. Şərur rayonunun mühüm strateji əhəmiyyətə malik olan, 1992-ci ildə işğal edilmiş Günnüt kəndi və ətraf ərazilər may ayının son günlərində Əlahiddə Ümumqoşun Ordu tərəfindən işğaldan azad olundu. Bu xəbərin sevincini təkcə Şərur, onun Günnüt kəndi deyil, bütün Naxçıvan, bütün Azərbaycan yaşadı. İgid və qəhrəman əsgərlərimizin, ordumuzun sayəsində belə sevincləri hələ çox yaşayacağıq. O gün bütün dünya Naxçıvandan danışdı. Və bu gün də danışır. Bu əməliyyat hər bir azərbaycanlını qürurlandırır, hər birimizin BÖYÜK QƏLƏBƏYƏ olan inamımızı daha da artırır.

Kəndin sakinləri elə həmin gün Günnütə yollandılar. Kənd öz övladlarına, 26 ildir ki, yolunu gözlədiyi əzizlərinə qovuşdu. Doğma kanalda – Naxçıvan Dövlət Televiziyasında o kadrları izlədikcə ürəyimiz dağa döndü. 2018-ci il iyulun 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Günnüt kəndindəki hərbi hissədə olması və burada xidmət keçən əsgər və zabitlərlə görüşməsi onlarda böyük ruh yüksəkliyi yaratdı. Ali Məclisin Sədri demişdir: ***"Bu yaxınlarda Əlahiddə Ümumqoşun Ordusu tərəfindən Günnüt kəndi və ətraf ərazilərin nəzarət altına alınması bir daha göstərdi ki, əsgər və zabitlərimiz qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirmək əzmindədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağı Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad edildi. Çox böyük mühəndislik və kəşfiyyat işləri aparıldı. Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirildi. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərmişdir. Naxçıvan əməliyyatı bir daha onu göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur".***

2018-ci ildə bu tədbirlərlə yanaşı, müxtəlif sosial obyektlər istifadəyə verildi, mühüm layihələr reallaşdırıldı. Həmin tədbirlər sırasında Naxçıvanda ilk dəfə olaraq may ayında "Nuhçıxan" İnformasiya Agentliyinin fəaliyyətə başlamasını informasiya blokadasının yarılmasında mühüm əhəmiyyət daşıyan hadisə kimi dəyərləndirmək olar. İnformasiya agentliyi bolluğunda "Nuhçıxan" yeni abhava gətirdi, gur işığı ilə söz adlı varidatın dəyərini daha da artırdı. Adı qədim, özü müasir olan bu sayt muxtar respublikanın bugünkü inkişafını sürətlə təkcə Azərbaycanımıza deyil, bütün dünyaya çatdırır. Nuh yurdunun qazandığı uğurlar, qələbələr ilə dünyanın müxtəlif ölkələrinə yayılmış həmvətənlərimiz də tanış olurlar.

Onu da deyək ki, bu gün təkcə *nuhcixan.az* deyil, bütün dünya Naxçıvandan yazır. Bu da onunla bağlıdır ki, diyarımız ən gözəl turizm məkanı kimi 2018-ci ildə öz qapılarını minlərlə əcnəbi turistə açıb. Onlar bu qədim yurd yerində gördüklərinə təəccüblərini gizlətmədiklərini, buradan yüksək təəssüratlarla ayrıldıqlarını mətbuat səhifələrinə çıxarırlar.

*1995-ci ilin dekabr ayından muxtar respublikada dəyişilməyən bir yol seçilib: Heydər Əliyev yolu. Həmin yol Naxçıvan Muxtar Respublikasının əsl inkişafa qovuşdurub. Qazanılan nailiyyətlərin, uğurların kökündə gərgin siyasi əməli fəaliyyətin dayandığı danılmazdır. Verilən tapşırıqların, nəzərdə tutulmuş tədbirlərin vaxtında və yüksək keyfiyyətlə həyata keçirilməsinin nəticəsidir ki, bu gün 2018-ci ilin uğurlarından qürurla söhbət açırıq. NAXÇIVAN bu gün 2018-ci ildə qazandığı uğurların təntənəsini yaşayır və yuxarıda da qeyd etdiyimiz kimi uğurlarına uğurlar əlavə edir. Ölkə başçısı cənab İlham Əliyevin çıxışlarının birində dediyi kimi:* ***"…Bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı heç bir sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. Bir daha qeyd etmək istəyirəm ki, siz bütün məsələləri – quruculuq, abadlıq işlərini, enerji təhlükəsizliyi, hərbi potensial, infrastruktur layihələrinin icrası, ərzaq təhlükəsizliyi məsələlərini həll etmisiniz. Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır".***

**Sara ƏZİMOVA**
*jurnalist*

# İlin yekunları müzakirə olunub



*Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında müzakirə olunan məsələlər və 2018-ci ildə Culfa rayonunun sosial-iqtisadi inkişafı ilə əlaqədar keçirilən müşavirədə rayon İcra Hakimiyyəti başçısının müavini Vüsal Məmmədzadənin məruzəsi dinlənilib.*

Bildirilib ki, 2018-ci ilin təkcə yanvar-noyabr aylarında rayonda 7 milyon 733 min 300 manatlıq sənaye məhsulu istehsal edilib.

Kənd təsərrüfatının inkişafından da danışan Vüsal Məmmədzadə qeyd edib ki, bəhs olunan dövrdə kənd təsərrüfatı məhsulları istehsalçılarına 50 faiz güzəştli şərtlərlə 595 min 400 manat dəyərində 992,3 ton mineral gübrə satılıb, 1067 istehsalçıya 491 min 700 manat dövlət yardımı verilib. Bu dövrdə müxtəlif kredit təşkilatları tərəfindən 574 kənd təsərrüfatı məhsulları istehsalçısına, ümumilikdə, 1 milyon 93 min 900 manat kredit verilib.

Hesabat ilində aqrolizinq xətti ilə 3-ü kombayn, 2-si traktor olmaqla, ümumilikdə, 30 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və aqreqatı sahibkarlara satılıb.

Qeyd olunub ki, 2018-ci ilin məhsulu üçün 2017-ci ilin payızında və 2018-ci ilin yazında 7392 hektar sahədə əkin aparılıb. Rayonda kənd təsərrüfatının bütün sahələri ilə yanaşı, heyvandarlıq da inkişaf etdirilir. 2018-ci ildə yeni doğulmuş 941 baş buzov üçün istehsalçılara 94 min 100 manat dövlət yardımı ödənilməsi heyvandarlıq məhsulları istehsalının artmasına səbəb olub. 2018-ci ilin yanvar-noyabr aylarında rayonda diri çəkidə 3428 ton ət, 9192 ton süd, 5 milyon 742 min ədəd yumurta, 133,2 ton yun istehsal edilib.

Kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyətə malik olan arıçılıq həm də yüksək gəlir gətirən sahə kimi diqqət mərkəzində saxlanılıb. Arıçılıqla məşğul olan sahibkarlara 113 manat məbləğində kredit verilib.

Müşavirədə qeyd olunub ki, paytaxt şəhərimiz Naxçıvandan sonra ilk dəfə Culfa şəhərində keçirilən "Ailə təsərrüfatı məhsulları" festivalında 30-a yaxın ailə təsərrüfatı tərəfindən 128 adda 1320 qablaşdırılmış məhsullar nümayiş olunub.

Məruzədə tikinti-quraşdırma işlərindən də söz açılıb. Qeyd olunub ki, ötən il Culfa şəhərində "Naxçıvan Avtomobil Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətinin servis mərkəzi, Dizə və Qazançı kəndlərində isə kənd və xidmət mərkəzləri, yeni məktəb binaları tikilib istifadəyə verilib, tarixi Qazançı körpüsü elmi əsaslarla bərpa edilib, rayon mərkəzində "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Yük və Sərnişin Daşımaları İdarəsinin vaqon təmiri sexinin tikintisi davam etdirilib. Bu dövrdə Culfa şəhəri Mehdi Hüseynzadə küçəsindəki 30 və 32 nömrəli çoxmənzilli yaşayış binalarının əsaslı təmiri başa çatdırılıb. Culfa şəhərindəki mərkəzi stadion yenidən qurulub. Stadionda 80 nəfərlik tribuna tikilib, basketbol və voleybol meydançası yaradılıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Hüseyn ŞƏKƏRƏLİYEV**



*Naxçıvan Musiqi Kollecində keçirilən yığıncağı kollecin direktoru Günay Əliyeva açaraq bildirib ki, hazırda təhsil müəssisəsində əyani şöbədə 11 ixtisas üzrə 480, qiyabi şöbədə 4 ixtisas üzrə 26 tələbə təhsil alır.*

Vurğulanıb ki, 2018-ci il yay imtahan sessiyasında tələbələr ümumtəhsil və ixtisas peşə hazırlığı fənləri üzrə imtahan veriblər. Tələbələrin qiymətləndirilməsi, sessiyanın nəticələri, davamiyyət kollokviumların nəticələrinə əsasən aparılıb, dövlət imtahanına buraxılan 145 tələbənin hamısı imtahanları müvafiq qiymətlərlə başa vurublar. Həmin tələbələrdən 7 nəfəri fərqlənmə, 138 nəfəri isə subbakalavr diplomuna layiq görülüb.

Qeyd olunub ki, musiqi kollecində istedadlı gənclərin üzə çıxarılması, onların ifaçılıq qabiliyyətlərinin artırılması məqsədilə tələbələrin mütəmadi solo konsertləri keçirilib.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar təşkil edilən "Gənc ifaçıların muxtar respublika müsabiqəsi"ndə musiqi kollecinin 70-ə yaxın tələbəsi iştirak edib, onlardan 13-ü I, 18-i II, 3-ü isə III yerə layiq görülüb.

Direktor onu da bildirib ki, oxunması zəruri olan kitabların müzakirələri təşkil edilib. "Amerika Birləşmiş Ştatlarının XVI prezidenti Avraam Linkolnun oğlunun müəlliminə məktubu" kitabı əsasında viktorina keçirilib. Viktorinada qalib gələn 3 komanda mükafatlandırılıb.

Kollecin direktoru onu da qeyd edib ki, təhsil müəssisəsi muxtar respublikada ixtisaslı musiqiçi kadrların yetişdirilməsində və təhsilin keyfiyyətinin artırılmasında bundan sonra da öz işini günün tələbləri səviyyəsində qurmağa səy göstərəcək, təhsilin səviyyəsinin artırılmasında daha böyük əzm və iradə ilə çalışacaq.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Gülcamal TAHİROVA**

# 2019-cu il “Ailə təsərrüfatları” ilidir

*Muxtar respublika iqtisadiyyatında diqqətçəkən fəaliyyət istiqamətlərindən biri də ailə təsərrüfatlarıdır. Ailə üzvlərinin birgə əməyinə əsaslanan belə təsərrüfat formaları Naxçıvanda min illər ərzində yaranmış, böyük yol keçərək hazırkı inkişaf səviyyəsinə çatmışdır. Son dövrlərdə dövlət tərəfindən bu fəaliyyət sahəsinin təşviqi ilə bağlı atılan addımlar muxtar respublikada ailə təsərrüfatlarının sayının artmasına imkan vermişdir. Ötən il dekabrın 27-də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2019-cu ilin muxtar respublikada “Ailə təsərrüfatları” ili elan olunması isə diyarımızda müxtəlif təsərrüfat sahələrində çalışanlar üçün yeni imkanlar açmışdır.*





Xatırladaq ki, hələ iki il bundan əvvəl – beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasında Ali Məclisin Sədri muxtar respublikanın sosial-iqtisadi inkişafı haqqındakı çıxışında bu məqama toxunaraq demişdir: ***“...Yeni müəssisələr yaradılarkən muxtar respublikanın bütün rayonları üzrə əmək və xammal ehtiyatları, təsərrüfatçılıq ənənələri nəzərə alınmalıdır. Ailə təsərrüfatlarının yaradılması və inkişafı yeni istehsal müəssisəsi yaratmadan məşğulluq problemini həll edir, əhali gəlirlərinin həcminin artmasına müsbət təsir göstərir. Ona görə də ailə təsərrüfatlarının yaradılmasına üstünlük verilməlidir”.***

Bəs belə təsərrüfatların yaradılmasına verilən önəm hansı əhəmiyyətli tərəfləri ilə seçilir?

Əvvəlcə onu qeyd edək ki, bu gün inkişaf etmiş ölkələrin hamısında özəl sektorun əsası ailə təsərrüfatları və belə təsərrüfatların özəyini təşkil edən ailə biznesi üzərində qurulub. Çünki ailə təsərrüfatları və yaxud digər adı ilə desək, ailə biznesi özəl mülkiyyətə əsaslanan iqtisadiyyatda özünüməşğulluğun ən uyğun formasıdır. Bu cür təsərrüfatların fəaliyyəti digər ölkələrdə olduğu kimi, Azərbaycanda da qanunvericiliklə tənzimlənir. Əvvəlki yazılarımızda bununla bağlı oxucularımıza məlumat versək də, aktuallığını nəzərə alıb mövzuya yenidən nəzər salmaq istərdik.

Ölkəmizdə ailə təsərrüfatları haqqında hüquqi bazanın yaradılması 2005-ci ilə təsadüf edir. Belə ki, “Ailə kəndli təsərrüfatı haqqında Azərbaycan Respublikasının Qanunu”nda (14 iyun 2005-ci il) göstərilir ki, ailə kəndli təsərrüfatı – ailə üzvlərinin və onlarla birgə fəaliyyət göstərən şəxslərin fərdi əməyi və mülkiyyətində və ya icarəsində olan əmlak əsasında hüquqi şəxs yaratmadan kənd yerlərində istehsal və digər təsərrüfat fəaliyyətinin (məhsulların istehsalının, emalının, saxlanmasının, daşınmasının və satılmasının) birgə həyata keçirilməsidir. Ailə kəndli təsərrüfatının tərkibi bir nəfərdən, onun ailə üzvlərindən və onlarla qohumluq və ya digər münasibətlər əsasında birgə fəaliyyət göstərən şəxslərdən ibarət ola bilər. Ailə kəndli təsərrüfatı kənd yerlərində qanunvericiliklə qadağan olunmayan və məhdudiyyət qoyulmayan bütün iqtisadi fəaliyyət növləri ilə məşğul olan təsərrüfatçılıq subyektidir və onun fəaliyyəti sahibkarlıq sayılmır. Qanunvericiliyin məqsədi kənd yerlərində ailə əməyinə əsaslanan təsərrüfatların inkişafının dəstəklənməsi, özünüməşğulluğun stimullaşdırılması və onun səmərəliliyinin yüksəldilməsi, alternativ gəlir mənbələrinin genişləndirilməsi, kənd yerlərinin inkişafının sürətləndirilməsinə şərait yaratmaqdır.

Vurğulamaq lazımdır ki, bazar iqtisadiyyatı şəraitində ümumi iqtisadi fəallıqda əsas yeri kiçik və orta sahibkarlıq subyektləri tutur. Təşəbbüskarlıqda həlledici rol da məhz onlara məxsusdur. Bunu inkişaf etmiş ölkələrin real iqtisadi vəziyyətlərindən, təcrübələrindən də əyani şəkildə görmək mümkündür. Ancaq ailə təsərrüfatları kiçik sahibkarlıq subyektləri deyil, ondan aşağı meyarda fəaliyyət növüdür. Yəni ailə təsərrüfatları kiçik sahibkarlıq üçün bir növ başlanğıc rolunu oynayır. O zaman sual yaranır ki, ailə təsərrüfatlarını kiçik sahibkarlıq subyektlərindən necə fərqləndirmək olar? Bunun üçün sahibkarlıq subyektlərinin təsnifatı haqqında məlumatlara ehtiyac duyuruq.

Qeyd edək ki, sahibkarlıq subyektlərinin təsnifatı üçün vahid beynəlxalq meyarlar yoxdur. Ayrı-ayrı ölkələrdə müxtəlif meyarlar mövcuddur. Məsələn, Almaniyada, Belçikada, Böyük Britaniyada, Niderlandda, Portuqaliyada meyar kimi müəssisənin dövriyyə göstəricisi, İtaliya və İrlandiyada daşınmaz əmlakın həcmi istifadə olunur. Meyarlar arasındakı fərqlilik milli xüsusiyyətlərin, sənayeləşdirmə səviyyəsindəki fərqin, ölkənin beynəlxalq əmək bölgüsündə yeri və rolunun nəticəsidir. Dünya təcrübəsi göstərir ki, müxtəlif təşkilati-hüquqi formalı müəssisələrin kiçik və orta sahibkarlıq subyektlərinə aidliyinin əsasında duran daha ümumi meyarlara işçi heyətinin sayı, nizamnamə kapitalının miqdarı, aktivlərin və dövriyyənin həcmi kimi meyarlar daxildir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin daxil olduğu İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı 19 nəfərədək şəxsin çalışdığı müəssisələri mikro, 99 nəfərədək şəxsin çalışdığı müəssisələri kiçik, 100-499 nəfərin çalışdığı müəssisələri orta, 500 nəfərdən çox şəxsin çalışdığı müəssisələri isə iri müəssisələr kimi təsnifləşdirir. Məsələn, Avropa Birliyi ölkələrində 150 milyon məşğul əhalinin 100 milyon nəfərinin çalışdığı 16 milyondan çox kiçik və orta müəssisə fəaliyyət göstərir. Onlardan, təxminən, 15 milyonu (90 faizdən çoxu) 10 nəfərədək işçisi olan mikromüəssisələrdir, qalan bir milyon müəssisədə çalışanların sayı 10-250 nəfər arasında dəyişir. Qardaş Türkiyə Respublikasında işçilərinin sayı 9 nəfərədək, illik dövriyyəsi 1 milyon lirəyədək olan müəssisələr mikromüəssisələr, işçilərinin sayı 10-49 nəfərədək, illik dövriyyəsi 8 milyon lirəyədək olan müəssisələr kiçik, işçilərinin sayı 50-249 nəfərədək, illik dövriyyəsi 40 milyon lirəyədək olan müəssisələr orta müəssisələr sayılır.



Azərbaycanda sahibkarlıq subyektlərinin təsnifatı isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 iyun tarixli “İri, orta və kiçik sahibkar meyarları”nın təsdiq edilməsi haqqında” Qərarında göstərilən meyarlara əsaslanır. Belə ki, həmin qərara əsasən sahibkarların kiçik, orta və iri sahibkar kimi müəyyənləşdirilməsi üçün “işçilərin orta siyahı sayı” və “illik gəlir” meyar göstəricilərindən daha yüksək olanı əsas götürülür. Həmin meyarlara görə, işçilərinin orta siyahı sayı 25 nəfərə kimi, illik gəliri isə 200 min manatadək olan kiçik, 25 nəfərdən 125 nəfərədək və 200 min manatdan 1 milyon 250 min manatadək olanlar isə orta sahibkarlar sayılır. Buradan da bir daha aydın olur ki, ailə təsərrüfatları həm işçi sayı, həm də illik dövriyyə baxımından göstərilən rəqəmlərdən daha aşağı meyarları özündə əks etdirir.

Bu gün ailə təsərrüfatlarının inkişaf etdirilməsinin çox müsbət tərəfləri var.

Adından da göründüyü kimi, ailə təsərrüfatı ailə üzvlərinin iştirak etdiyi, idarəçiliyin və varisliyin ailə ənənələri ilə həyata keçirildiyi biznes modelidir. Ailə təsərrüfatında gəlirlərin və kapitalın idarə edilməsində ailə üzvlərinin hamısı bərabər iştirak edir ki, bu da etibarlılığı şərtləndirən vacib amillərdəndir. Ailə biznesində maliyyə intizamı yüksəkdir, hər kəs bir-birinə çox etibar edir. Buna görə də belə biznesdə digər müştəri və tərəfdaşlarla konfliktlərə çox az rast gəlinir. Ailə təsərrüfatı yaradanda bir çoxları işə məhz ailə üzvlərini cəlb etməyə çalışır. Bunun müsbət tərəfi ondadır ki, gəlir ailə büdcəsindən kənara çıxmır, qazancdan hamı bəhrələnir. Digər tərəfdən ailə üzvlərinin bir-birindən sirləri olmur, buna görə də biznesdə gözlənilməz uğursuz hadisələrin ehtimalı və maddi itkilər çox az olur. Ailə təsərrüfatının digər bir müsbət cəhəti odur ki, biznesin zəif zamanlarında işçilər daha az əməkhaqqı ilə, hətta pulsuz işləməyə razı olurlar. Maliyyə çətinlikləri olduqda, ailə üzvlərinə bunu izah etmək çox asandır. Bundan əlavə, ailə təsərrüfatında bütün ailə üzvləri biznesdə böyük təcrübə keçir və valideynlərin şəxsi timsalında bunu öyrənmək daha effektiv olur. Bu isə ailə başçısına uşaqlarının gələcəyinin təmin olunması və onlara biznesi daha irəli aparmaları üçün geniş imkanlar yaradır. Və nəhayət, ailə təsərrüfatı istehsal etdikləri məhsulda yeni dəyərlər yaradır və bu dəyərlər biznes inkişaf etdikcə yaşayır.

Ailə təsərrüfatlarının daha əhəmiyyətli tərəflərindən biri də ailə üzvlərinin məşğulluğunun təmin olunmasıdır. Məlumdur ki, ailə üzvlərinin hər biri zamanı yetişdikcə işləmək məcburiyyətindədir. Yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluq problemlərinin həlli isə daim dövlət tərəfindən müxtəlif tədbirlərin həyata keçirilməsi zərurətini ortaya qoyur. Ailə təsərrüfatı ilə məşğul olanların ailə üzvləri isə belə tədbirlərə ehtiyac duymadan öz məşğulluqlarını təmin edirlər. Bu gün muxtar respublikamızda əmək qabiliyyətli əhalinin böyük bir hissəsi məhz aqrar sektora məxsus ərazilərdə, yəni kəndlərdə məskunlaşıb. Deməli, iş üçün şəhərə üz tutanlar elə yaşadıqları yerdə öz məşğulluqlarını təmin edə bilərlər. Bu isə ailə təsərrüfatçılığının, başqa sözlə desək, mikrosahibkarlığın inkişafına, eləcə də daxili bazarın yerli məhsullarla təmin edilməsinə öz töhfəsini verər.

Bu gün muxtar respublikada ailə təsərrüfatları daha çox heyvandarlıq, quşçuluq, arıçılıq, bağçılıq və əkinçilik sahələri üzrə fəaliyyət göstərirlər. Sahibkarlara güzəştli şərtlərlə kreditlərin, müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqların verilməsi, arıçılıq avadanlıqlarının lizinq yolu ilə əhaliyə çatdırılması, subsidiyaların ödənilməsi, arıçılıq təsərrüfatlarının müxtəlif dərman preparatları ilə pulsuz təmin edilməsi, istehsal olunmuş məhsulların satışı üçün əlverişli şəraitin yaradılması və keçirilən festivallar muxtar respublikada ailə təsərrüfatlarının inkişafına hərtərəfli şərait yaradır. Bunun nəticəsidir ki, hazırda muxtar respublikada 800-dən çox kiçik və böyük ailə təsərrüfatı mövcuddur. Heç şübhəsiz ki, 2019-cu ilin muxtar respublikada “Ailə təsərrüfatları” ili elan olunması bu fəaliyyət sahəsinə marağı daha da artıracaq, yeni yaradılacaq ailə təsərrüfatları doğma diyarımızın iqtisadiyyatına öz töhfəsini verəcək.

**Səbuhi HƏSƏNOV**

*Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Sosial sığorta haqqında” və “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının qanunlarında edilmiş bir sıra əlavə və dəyişikliklərin büdcə təşkilatlarında tətbiqinin təmini və məsələ ilə bağlı ətraflı izahın verilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzində təlimlərə start verilib.*

# Qanunvericilikdəki dəyişikliklərlə bağlı təlimlər keçirilir

Təlim başlanmazdan əvvəl Maliyyə Tədris Mərkəzinin direktoru, iqtisad üzrə fəlsəfə doktoru Sevinc Cabbarova çıxış edərək iştirakçılara təlimlə bağlı ümumi məlumat verib, əlavə və dəyişikliklərin əhəmiyyəti və məqsədi barədə danışıb. Daha sonra təlimə start verilib.

Təlim müddətində vergi sahəsində edilən dəyişikliklərlə bağlı Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Zahid Qənbərovun elektron materiallarla zənginləşdirilmiş geniş çıxışı olub və mövzu ilə əlaqədar dinləyiciləri maraqlandıran suallar ətrafında müzakirələr aparılıb.



Sosial sığorta və İşsizlikdən sığorta sahəsində edilmiş dəyişikliklər barədə Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondunun Gəlirlər şöbəsinin müdiri Əli Həsənov çıxış edərək məsələnin mahiyyəti haqqında iştirakçılara ətraflı məlumat verib.

Təlimin sonunda iştirakçılara Maliyyə və Vergilər nazirliklərinin, Dövlət Sosial Müdafiə Fondunun birgə təşəbbüsü ilə hazırlanmış əlavə və dəyişiklikləri özündə əks etdirən məlumat kitabçaları paylanılıb.

Qeyd edək ki, təlimlər 7-11 yanvar tarixlərində 5 gün ərzində gündə iki dəfə təşkil olunur. Tədris planına əsasən təlimlər bütün nazirlik, komitə və təşkilatlarla birlikdə, ümumilikdə, 187 büdcə təşkilatından 252 maliyyə və mühasibatlıq işçisini əhatə edəcək.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

# Epidemioloji vəziyyət sabitdir

***Muxtar respublikamızda dekabr ayında epidemioloji vəziyyət sabit olub, zəhərlənmələr baş verməyib. İnfeksiya ocaqlarında profilaktik və epidemiya əleyhinə tədbirlər həyata keçirilib. Yenidoğulmuş uşaqların 271-i idarəolunan yoluxucu xəstəliklərə görə BSJ, hepatit B, poliomielit peyvəndi alıb. Ay ərzində aşkar olunan hepatit xəstəliklərinə qarşı müvafiq profilaktik tədbirlər görülüb. Yoluxma mənbələri müəyyənləşdirilib və səhiyyə maarifi işi aparılıb.***

Mövsümi xəstəliklərin və zəhərlənmələrin qarşısını almaq məqsədilə qidalanma sənayesi, kommunal, ictimai iaşə, ticarət, su təchizatı, müalicə-profilaktika müəssisələrinin rəhbərlərinə müvafiq göstərişlər verilib, su təchizatı sistemlərində, ictimai, inzibati və fərdi binalarda, məişət tullantıları qoyulan meydançalarda 27 min 750 kvadratmetr sahədə dezinfeksiya və 10 min 600 kvadratmetr ərazidə dezinseksiya tədbirləri həyata keçirilib.

Uşaq və yeniyetmə müəssisələrində maarifləndirici və dezinfeksiya tədbirləri aparılıb, eyni zamanda qurd invaziyalarına qarşı nümunələr yoxlanılıb.

Kəskin respirator və digər infeksion xəstəliklərin qarşısının alınması məqsədilə bütün ictimai iaşə, ticarət, su təchizatı, sərhəd-gömrük məntəqələrində profilaktik sağlamlaşdırıcı əks-epidemik tədbirlər həyata keçirilib.

Dekabr ayı ərzində 64 su, 71 yuyuntu və 1106 digər nümunələrin bakterioloji müayinələri aparılıb. Obliqat qrupların bakterioloji müayinələri diqqət mərkəzində saxlanılıb, ümumilikdə, 1231 nəfər müayinədən keçib.

Kommunal gigiyena laboratoriyasında 9 nümunədə 21 müayinə, toksikoloji, xarici mühit və ərzaq məhsullarında zəhərli kimyəvi maddələrin qalıq miqdarını təyini laboratoriyasında 3 nümunədə 11 müayinə aparılıb.

İstehsalatda baş verə biləcək bədbəxt hadisələrin qarşısının alınması məqsədilə tikinti və inşaat obyektlərində nəzarət yoxlamaları aparılıb.

Əhalinin sanitariya sahəsində maarifləndirilməsi məqsədyönlü şəkildə həyata keçirilib, 19 mühazirə oxunub. Sanitariya-epidemioloji vəziyyətin yaxşılaşdırılması məqsədilə muxtar respublikanın sanitariya-epidemioloji xidmət orqanları tərəfindən obyektlər sanitar-gigiyenik vəziyyətə görə yoxlanılıb, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün xəbərdarlıqlar edilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Növbəti yığıncaq Hava və Ekstremal İdman Növləri Federasiyasında keçirilib



***Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasında 2018-ci il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirə ilə bağlı yığıncaq olub.***

Tədbiri giriş sözü ilə açan federasiyanın sədri Mayis Əliyev bildirib ki, federasiya Gənclər və İdman Nazirliyi ilə birgə tədbirlər planına uyğun olaraq ötən il ərzində müxtəlif idman növləri üzrə yarışlar keçirib. Bu yarışlarda, ümumilikdə, 861 idmançı, 61 məşqçi və 21 hakim iştirak edib. Bunlardan da 250-yə yaxını qız idmançılardır. Hazırda federasiyanın rayonlarda bölmələri fəaliyyət göstərir. 2018-ci ildə təşkil olunan şəhər və rayon birinciliklərində, ümumilikdə, 710 idmançı mübarizə aparıb.

Diqqətə çatdırılıb ki, il ərzində federasiyanın dəvəti ilə Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının ekstremal idman növləri üzrə məşqçi-təlimçisinin iştirakı ilə keçirilən təlim-məşq toplantılarında federasiyanın "İlandağ", "Qapıcıq" idman klubları və 10 komandanın üzvündən ibarət 221 idmançı iştirak edib. Ötən il fevralın 24-də Türkiyənin müxtəlif peşə sahiblərindən və nüfuzlu kütləvi informasiya vasitələrinin əməkdaşlarından ibarət 30 nəfərlik alpinist qrupu federasiyasının "İlandağ" idman klubunun 11 idmançısı ilə birlikdə Xocalı soyqırımı qurbanlarının xatirəsini anmaq üçün Haçadağa yürüş edib.

Mayis Əliyev yaradılan hərtərəfli şəraitə, göstərilən qayğıya görə federasiyanın məşqçi və idmançıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra federasiyanın sədr müavini Azər Məmmədovun 2018-ci ildə görülən işlər və keçirilən yarışlar barədə hesabatı dinlənilib.

Muxtar respublikanın gənclər və idman naziri Azad Cabbarov çıxış edərək bildirib ki, adıçəkilən müşavirədə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən idman federasiyalarına bir sıra tapşırıqlar verilib. Həmin tapşırıqlara əsasən Hava və Ekstremal İdman Növləri Federasiyasında idmanın bu növünün inkişaf etdirilməsi, gənclərin idmana cəlbi, idman yarışlarının kütləviliyinin təmin edilməsi, federasiya daxilində istedadlı gənclərin məlumat bankının yaradılması və hər yarışdan sonra yenilənməsi təmin olunmalıdır. Muxtar respublikada ölkə və beynəlxalq səviyyəli yarışların keçirilməsinə, həmçinin beynəlxalq səviyyəli yarışlarda muxtar respublika idmançılarının iştirakına şərait yaradılmalıdır.

Nazir vurğulayıb ki, adıçəkilən federasiya işini günün tələblərinə uyğun qurmayıb, yaradılan şəraitdən və infrastrukturun imkanlarından düzgün istifadə etməyib. İl ərzində idmançıların Azərbaycan və beynəlxalq səviyyəli yarışlarda iştirakı təmin olunmayıb. Federasiyada peşəkar məşqçi-müəllimlərin və idmançıların hazırlanması işi aparılmayıb. Bunun nəticəsidir ki, federasiyada fərqlənən idmançı və məşqçi-müəllimlər yox dərəcəsindədir. Peşəkar məşqçi-müəllim və idmançıların olmaması federasiyanın muxtar respublikadan kənarda keçirilən yarışlarda iştirak etməməsinə səbəb olub. Fəaliyyətini gücləndirmək məqsədilə 2018-ci ildə Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyası öz strukturunu yenidən formalaşdırıb, federasiya sədri vəzifəsindən uzaqlaşdırılıb.

Yığıncaqda federasiyanın 2019-cu il üçün hazırlanan qərar layihəsi oxunub.

Sonra Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasının il ərzində fərqlənən idmançıları mükafatlandırılıb.

*Sağlam həyat*

## İdmanla məşğul olan uşaqlarda qış fəslində rast gəlinən xəstəliklər və onlardan qorunma yolları

*Bəzi insanlar müxtəlif səbəblərə görə azhərəkətli həyat tərzi keçirirlər. Onların bir qismi bunu işin ağırlığı, vaxt qıtlığı, digərləri streslər, hava şəraitinin pis olması kimi bəhanələrlə izah etməyə çalışırlar. İnsan müəyyən yaşa çatdıqdan sonra funksional inkişafının ən yüksək səviyyəsinə çatır. Yalnız bundan sonra fiziki inkişafında, tədricən, geriləmə ilə üz-üzə qalır. Aparılan tədqiqatlar sübut edib ki, fiziki fəallığı yüksək olan şəxslərdə iyirmi yaşdan sonra baş verən qocalma prosesi daha yavaş gedir. Fiziki fəallığın qocalma prosesinin sürətini azaltması, müəyyən xəstəliklərin qarşısını alması və həyat keyfiyyətini yaxşılaşdırması haqqında yetərli məlumatlar vardır. Odur ki, insan kiçik yaşlarından etibarən idmana meyil etməli və müəyyən idman növü ilə məşğul olmalıdır. Bəs bu zaman uşaqları gözləyən təhlükə nədir? Onlar qış aylarında hansı xəstəliklərlə üzləşə bilərlər?*

Bu dövrdə uşaqlarda daha çox rast gəlinən xəstəliklər mau (şeyerman) və şintsdir (haqlund). Adıçəkilən xəstəliklər son zamanlar uşaqlarda tez-tez müşahidə olunur və vaxtında müalicə edilməzsə, bunun nəticəsi ağır ola bilər. Mau xəstəliyi uşaqların sürətli inkişaf dövründə rast gəlinən onurğa sütunu xəstəliyidir. Bu xəstəliyə onu öyrənən danimarkalı həkim Verfel Şeyermanın adına uyğun olaraq şeyerman xəstəliyi də deyirlər. 8-14 yaşlı uşaqlarda bu xəstəliyə daha çox rast gəlinir. 14 yaşından yuxarı uşaq və gənclər nadir hallarda bu xəstəliklə üzləşirlər. Bəs bu xəstəlik necə yaranır? İnsanın onurğasında normal qaydada bir neçə fizioloji əyrilik (20-40 faiz) olur. Mau xəstəliyi zamanı isə əyilmə 45 faizdən çox olur və döş qəfəsində yerləşən orqanların, o cümlədən ağciyər və ürəyin funksiyasının pozulmasına gətirib çıxarır. Nəticədə, uşaqda qozbellik yaranır. Bu xəstəlik bəzən insanı aldadır. Belə ki, ilkin mərhələdə bilinməyən xəstəlik müəyyən zamandan sonra bel nahiyəsində ağrıların yaranmasına səbəb olur.

Bu xəstəliyə qış aylarında idmanla məşğul olan uşaqlarda daha çox rast gəlinir. Səbəbi isə məşqçilərin uşaqlara düzgün fiziki yüklənmələr təyin etməməsidir. Alimlər bu xəstəliyin 3 dərəcəsinin olduğunu qeyd edirlər. Erkən yaş dövrlərindəki latent dərəcəsi müalicə olunmazsa, xəstəlik 2-ci dərəcəyə keçir ki, bu da 15-19 yaşlı uşaqlarda müşahidə edilir. Üçüncü dərəcəyə isə 20-dən yuxarı yaşlı insanlarda rast gəlinir. Xəstəliyin müalicəsinə gəlincə, alimlər daha çox masaja üstünlük verirlər. Çünki masaj zamanı onurğa sütunu ətrafında əzələlərdə qan dövranı yaxşılaşır, əzələlər möhkəmlənir.

Şints xəstəliyi də mau kimi idmanla məşğul olan uşaqlarda tez-tez rast gəlinir. Yaranma səbəbi məlum olmasa da, adətən, uşaqlar qış aylarında fiziki yüklənmələrin çox olması nəticəsində bu xəstəliklə üzləşirlər. Yaş həddinə gəlincə, oğlanlar 6-15, qızlar isə 7-11 yaşlarda bu xəstəliyə tutulurlar.

Bəs bu xəstəlik necə baş qaldırır? Uşaqlar qış aylarında fiziki hərəkətlər zamanı dabanlarında ağrılar hiss edirlər: dabanın arxa hissəsində qızartı, şiş əmələ gəlir. Bu zaman idmanla məşğul olmağı müəyyən müddətə təxirə salmaq və dabanda qan dövranını yaxşılaşdırmaq lazımdır. Bunun qarşısını almaq üçün xəstəliyi ilkin mərhələdə müəyyən etmək vacibdir. Deməli, burada iş valideynlərlə məşqçilərin üzərinə düşür.

Ümumiyyətlə, qış aylarında uşaqları xəstəliklərdən uzaq tutmaq və onların müalicəsi üçün idman təbabətindən istifadə etmək lazımdır. Bu təbabət növü müasir dövrdə daha geniş vüsət alıb. Onun əsas vəzifələri idmanla məşğul olmadan əvvəl tibbi müayinələr vasitəsilə uşaqların sağlamlıq imkanlarını qiymətləndirmək, müxtəlif idman yarışlarında və məşqlərdə meydana gələn kəskin və xroniki sağlamlıq problemlərinin diaqnostikasını aparmaq, idman klublarında sahə həkimi olaraq ilk tibbi yardımı həyata keçirməkdir. Bunlarla yanaşı, uşaqların sağlamlığını qorumaq, sağlam həyat tərzini təbliğ etmək məqsədilə maarifləndirmə işi, idman təbabəti sahəsində araşdırmalar aparmaq da vacib məsələlərdəndir.

Bütün bunlara əməl etməklə uşaqlarımızı fiziki cəhətdən daha gümrah, sağlam böyütmüş olar, onların idmanla intensiv məşğul olmalarına şərait yaradarıq. Gəlin, uşaqlarımızın sağlamlığını qoruyaq.

**Ceyhun MƏMMƏDOV**

*Azərbaycan dilində "qara" sözü rəng mənası verməkdən başqa bir neçə mənada da işlənir. Məsələn: böyük, iri, geniş. Bundan başqa, bu söz mənfilik, çətinlik, aldatma (qara vermək), yas, qorxu mənasında da işlədilir. Plovun üstünə və ya yanında qoyulan üz-gözə onun qarası deyilir. Naxçıvanda qara dam deyəndə isə, əsasən, XX əsrin 70-80-ci illərinə qədər istifadə edilən böyük təsərrüfat evi başa düşülürdü.*

*Etnoqrafiyamız*

## Təsərrüfat binaları – qara dam, yaxud zirzəmilər

Qara dam yaşayış evlərindən bir qədər aralı tikilər, eni və uzunu, təxminən, eyni – 5-6 metr olardı. Ortadan dirək vurular, dirəyin üstündən kərən (tir) atılardı. Qara damın ortasında təndir qoyulardı. Qışda təndir yandırılar, bəzən günlük çörək bişirilər, sonra isə üzərinə kürsü qoyulardı. Təndirin tüstüsünü çıxarmaq üçün damın üstündə baca qoyulsa da, tüstü divarları və dirəkləri qaraldardı. Bu cür tikiliyə böyüklüyünə görə və ya dirəklərinin və divarının qara olmasına görə "qara dam" deyilirdi.

Qışda qohum və qonşular bu cür qara damı olan ailəyə qonaq gedər, kürsünün başına toplaşar, uzun qış gecəsini nağıl, tapmaca söyləməklə başa vurardılar. Qara dam həm də təsərrüfat damı idi. Ev ərzağı, məişət əşyaları, yayda eymə, pendir burada saxlanar, istər divar, istərsə də yer hanası qara damda qurular, yun əyirilər, ip kələflənər, boyanmış kələflər açılaraq yumaq edilərdi. Həmin dövrə məxsus düyçə, kələf, yumaq, iy, kiriş, tağalaq kimi sözləri bu gün məişətimizdə az işlədildiyi üçün mənasını çox az adam bilir. Yazda Novruz bayramından qabaq qara damın tavanı və divarları əhənglə ağardılardı.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvanın dağlıq hissəsində qara dam tipli yaşayış evlərinin başqa bir variantı da – eyvanlı qara damlar geniş yayılmışdı. Belə evlərin qarşısı tirlər üzərində tikilmiş eyvanla tamamlanırdı. Eyvanların ya hər iki tərəfi açıq saxlanılır, ya da yanları hörülür, yalnız qabaq tərəfi açıq olurdu.

Zaman keçdikcə qara damlar əhəmiyyətini itirib. Muxtar respublikamızın ən ucqar dağ kəndində belə, müasir infrastrukturun yaradılması, elektrik enerjisinin, mavi yanacağın qışda da fasiləsiz verilməsi, müasir inşaat üsullarından və tikinti materiallarından istifadə edərək əlverişli, yaraşıqlı yaşayış binalarının tikilməsi qara damları da, necə deyərlər, xalqın ağır, məşəqqətli, qara günləri kimi tarixə qovuşdurub. Ancaq kənd yaşayış yerlərində hər bir ailədə əlavə təsərrüfat evinə də ehtiyac vardır. Naxçıvanın bir çox kəndlərində buna "qara ev" deyirlər. Qara evin ölçüsü ailənin ehtiyacına görə tikilir. Ərzaq ehtiyatı, məişət əşyaları bu binada saxlanılır. Hər bir kənd ailəsində qara ev yaşayış binaları qədər vacibdir. Müasir dövrdə bir çox evlər ikimərtəbəli tikilir. Bunların bəzilərinin birinci mərtəbəsi nisbətən alçaq olduğu üçün "zirzəmi" adlanır və həmin yer qara ev kimi istifadə edilir. Bəzi evlərdə isə



təməl bir qədər də dərin qoyulur və zirzəmi alınır. İki metrə yaxın dərinlikdə olan zirzəmi yayda sərin olduğu üçün müxtəlif ərzaq məhsulları burada saxlanılır. Xüsusən aran yerində yayda pendiri saxlamaq çətin olur. İstidən pendir xarab olur, keyfiyyəti aşağı düşür. Qışda isə zirzəmilər isti olduğu üçün kartof, soğan və digər qida məhsulları donub xarab olmur. Bundan başqa, zirzəmilərdə müxtəlif meyvələr də uzun müddət saxlanıla bilər. Zirzəmilərin divarı daşla hörülsə də, sementlə yox, adi palçıqla suvanmalıdır. Bəzən qida məhsullarını zirzəmidə saxlamaqla yanaşı, 2-3 metr dərinlikdə quyu qazıb orada da saxlayırlar. Soyuducunun olmadığı dövrdə ət və digər tez xarab olan qida məhsullarını bir qabın içində dərin su quyusuna sallayıb bir neçə gün saxlamaq olurdu.

Etnoqrafik yaddaşımıza nəzər saldıqda görürük ki, xalq yaşayış evləri müxtəliftipli olub. Bu evlərin yaranmasında həmin ərazinin təbii-coğrafi şəraiti, əhalinin təsərrüfat məşğuliyyəti, inşaat materialları, tikinti texnikası, ailə-məişət adətləri müəyyən rol oynayıb. Məhz bu amillərin təsiri ilə xalq yaşayış evləri müxtəlif tipdə olub, müasir yaşayış evlərinə kimi uzun bir tarixi təkamül prosesi keçib.

**Zaleh NOVRUZOV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Əmək müqaviləsi hansı müddətə bağlanılır ?*

**Cavab:** Əmək müqaviləsinin məzmununu təşkil edən zəruri şərtlərdən biri də onun müddətidir.

Azərbaycan Respublikası Əmək Məcəlləsi qüvvədəolma müddətinə görə əmək müqaviləsinin iki növünü – müddətli və müddətsiz növünü nəzərdə tutur.

Müddətsiz əmək müqaviləsi qabaqcadan müddəti müəyyən edilmədən bağlanan əmək müqaviləsidir. Belə müqavilə bağlayaraq tərəflər onun qüvvədəolma müddəti barədə razılaşmırlar.

Müddətli əmək müqaviləsi isə yalnız qanunvericilikdə nəzərdə tutulan hallarda və tərəflərin razılaşdığı müddətə bağlanıla bilər.

Əgər əmək müqaviləsində onun hansı müddətə bağlanması göstərilməmişdirsə, həmin müqavilə müddətsiz bağlanmış hesab edilir.

Müddəti müəyyən edilmədən bağlanmış əmək müqaviləsi hər iki tərəfin razılığı olmadan birtərəfli qaydada müddətli əmək müqaviləsi ilə əvəz edilə bilməz.

Müddətli əmək müqaviləsi fasiləsiz olaraq 5 ildən artıq müddətə davam etdikdə isə müddətsiz əmək müqaviləsi hesab edilir.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 18